GESCO SECURITY COMPANY
Since 2005
GESCO ASC




# AYLIQ İCMAL

May

# MÜNDƏRİCAT


| | |
|---|---|
| **İnsan resursları** | 03 |
| Vəzifədə yüksəliş | 04 |
| Xidmətdə fərqlənənlər | 05 |
| **Əməliyyat fəaliyyəti** | 06 |
| Ayın fəaliyyəti | 07 |
| Statistika | 08 |
| **Ayın xəbərləri** | 09 |
| Xəbərlər | 10 |
| **Mühafizənin gələcəyi** | 15 |
| Mühafizə xidmətinin gələcəyi | 16 |

"GESCO" ASC



# İNSAN RESURSLARI

**Dəyər verdiklərinizi qoruyuruq!**

# VƏZİFƏDƏ YÜKSƏLİŞ

***Əməkdaşlara yeni fəaliyyətlərində uğurlar arzulayırıq!***



## Vasif Sadıqov

Növbə rəisi

Mühafizəçi vəzifəsindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## Rəhman Abbasov

Baş mühafizəçi

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Təyyar Məmmədov

Baş mühafizəçi

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Şəhriyar Həsənli

Baş mühafizəçi

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Yusif Salahov

Baş mühafizəçi

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Tahir Ağayev

Baş mühafizəçi

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.

# XİDMƏTDƏ FƏRQLƏNƏNLƏR

Aşağıda adları qeyd olunan əməkdaşlarımız may ayı ərzində xidmət zamanı ayıq-sayıqlıq nümayiş etdirdikləri üçün mükafatlandırılıblar.


Orxan Nəsirov


Azad Həsənov


Əfqan Mirzəliyev


Elçin Namazov


Anar Həsənov

# ƏMƏLİYYAT FƏALİYYƏTİ



# AYIN FƏALİYYƏTİ




## "Baku Open 2023" beynəlxalq şahmat festivalının mühafizəsi

"GESCO" ASC Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan "Baku Open 2023" beynəlxalq şahmat festivalının mühafizəsini təşkil edib. 4-12 may tarixlərini əhatə edən yarışda mühafizəçilərimiz iştirakçıların binaya daxil olarkən üzərinin yoxlanılmasını, giriş-çıxışa nəzarəti təmin ediblər. Digər ölkələrdən qonaqların da iştirak etdiyi festivalın mühafizəsi uğurla həyata keçirilib.



May ayı ərzində mühafizəçilər tərəfindən qarşısı alınmış hadisələrin statistikasını təqdim edirik.



# AYIN XƏBƏRLƏRİ



# XƏBƏRLƏR




## Gəncə şəhər nümayəndəliyi fəaliyyətə başlayıb

"GESCO" ASC-nin Gəncə şəhərində nümayəndəliyi fəaliyyətə başlayıb. 30 may tarixində mühafizə şirkətinin yeni ofisinin açılış mərasimi keçirilib. Nümayəndəliyin yaradılmasında məqsəd ətraf ərazilərdəki layihələrin daha effektiv idarə olunmasını təmin etmək, çeviklik və operativliyi artırmaqdır.

# XƏBƏRLƏR



"Sabah" - "Beşiktaş" oyunu mühafizə olunub

13 may tarixində Türkiyənin məşhur futbol klubu "Beşiktaş" ilə "Sabah" futbol klubu arasında oyun keçirilib. Tofiq Bəhramov adına stadionda baş tutan qardaşlıq oyununun mühafizə olunmasında "GESCO" ASC iştirak edib.

# XƏBƏRLƏR



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "GESCO" mühafizə şirkəti tərəfindən ağacəkmə aksiyası keçirilib. Ətraf mühitin yaşıllaşdırılması və qorunması məqsədi daşıyan aksiya Bakının Müşfiqabad qəsəbəsində baş tutub və aksiya çərçivəsində 100 ədəd müxtəlif növ ağac tingi əkilib.

# XƏBƏRLƏR




"KİEK" tərəfindən seçilmiş əməkdaşlara sertifikatları təqdim olunub

"Kadrların İdarə Edilməsi Komissiyası" (KİEK) tərəfindən seçilmiş əməkdaşlara sertifikatları təqdim olunub. Xidmətdə fərqlənən, xidmət rəisi tərəfindən müsbət rəy verilən mühafizəçilərin müəyyən olunması və ehtiyat kadr ehtiyacının təmin edilməsi məqsədi ilə yaradılmş komissiya tərəfindən seçilmiş əməkdaşlar təlimlərə cəlb olunub. Qeyd olunan təlimləri uğurla başa vuran mühafizəçilər baş mühafizəçi, növbə rəisi vəzifələrinə irəli çəkiliblər.

# XƏBƏRLƏR




"GESCO" ASC - 18 il!

26.05.2023-cü il tarixində şirkətin 18 illiyinə həsr olunmuş tədbir təşkil olunub. Tədbir zamanı mühafizə şirkəti tərəfindən 18 il ərzində görülmüş işlər, qazanılmış uğurlar haqqında məlumat verilib, əməkdaşlar fikir və təəssüratlarını həmkarları ilə bölüşüblər.



# MÜHAFİZƏNİN GƏLƏCƏYİ

# Mühafizə xidmətinin gələcəyi və trendlər

**1. Texnologiyadan istifadənin genişlənməsi**

Texnologiya artıq mühafizə sənayesini də dəyişdirir və bu tendensiyanın davam edəcəyi gözlənilir. Təhlükəsizlik kameraları, dronlar və biometrik sistemlər təkmilləşdirilmiş nəzarət imkanları təmin etməklə obyektin ümumi təhlükəsizliyini yaxşılaşdırdıqları üçün getdikcə populyarlaşır. Bundan əlavə, bədən kameraları və ağıllı cihazlar kimi geyilə bilən texnologiya təhlükəsizlik işçilərini real vaxt rejimində məlumatla təmin edə, onların işini asanlaşdıra və daha effektiv edə bilər.

**2. Önləyici tədbirlərə maraq**

Mühafizəçinin ənənəvi rolu təhlükəsizlik insidentlərinə cavab verməkdir, lakin gələcəkdə mühafizə xidməti daha çox önləyici tədbirlərə diqqət yetirəcək. Buraya müntəzəm risk qiymətləndirmələrinin aparılması, təhlükəsizlik protokollarının tətbiqi və işçilərə təhlükəsizlik məlumatlılığı üzrə təlimlərin verilməsi daxildir. Mühafizəçi xidmətləri önləyici tədbirlərə diqqət yetirməklə insident ehtimalını azaltmağa, işçilər və müştərilər üçün daha təhlükəsiz mühit təmin etməyə kömək edə bilər.

**3. Süni intellektin inteqrasiyası**

Mühafizə sənayesində süni intellektin (AI) artan rol oynaması gözlənilir. Süni intellekt (AI) böyük həcmdə məlumatların təhlili və real vaxt rejimində məlumat və xəbərdarlıqların təmin edilməsi üçün istifadə oluna bilər ki, bu da mühafizəçinin işini asan və effektiv edir. Məsələn, süni intellektlə işləyən kameralar qeyri-adi davranışları və ya potensial təhdidləri aşkarlaya və mühafizəçiləri dərhal xəbərdar edə, onlara tez və effektiv cavab verməyə imkan verə bilər.

**4. Mobil təhlükəsizliyə artan tələb**

Müəssisələr mobilləşdikcə və fəaliyyət dairəsi genişləndikcə mobil təhlükəsizlik xidmətlərinə tələbatın artacağı gözlənilir. Mühafizə şirkətləri avtomobil patrulları və mobil müşahidə kimi müxtəlif vasitələrlə təhlükəsizliyi təmin edə bilməlidir. Bu, qabaqcıl texnologiyalardan, eləcə də yüksək təlim keçmiş və mobil işçi qüvvəsindən istifadəni tələb edəcək.

> Mühafizə sənayesi sürətlə inkişaf edir və gələcəkdə bu sahədə əhəmiyyətli dəyişikliklər gözlənilir. Mühafizə xidməti də texnoloji inkişaf və təhlükəsizlik təhdidləri sürətləndikcə zamanı qabaqlamalı və bu proseslərə uyğunlaşmalı olacaq. Yuxarıda təqdim olunanlar, çox güman ki, mühafizə xidmətinin gələcəyini formalaşdıracaq bəzi tendensiyalardır.

GESCO SECURITY COMPANY

Since 2005

GESCO ASC

## BİZİMLƏ ƏLAQƏ

+994 12 310 05 77
+994 55 207 00 40

office@gesco.az

www.gesco.az

Bakı, Ziya Bünyadov prospekti, 1965-ci məhəllə, Çinar Park Biznes Mərkəzi